**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **İYUN 2016**
**MÜLKİ VƏ CİNAYƏT HÜQUQLARI, VERGİ VƏ GÖMRÜK,**
**ƏMƏK MİQRASİYASI**

## BANK VƏ SIĞORTA ŞİRKƏTLƏRİNİN AİDİYYƏTİ ŞƏXSLƏRLƏ BAĞLI ƏQDLƏRİ

Aidiyyəti şəxslərlə əqdlərin tənzimlənməsi sahəsində aparılan islahatların davamı kimi qanunverici orqan Banklar haqqında və Sığorta Fəaliyyəti haqqında qanunlara (müvafiq olaraq 5 iyun 2016-cı il və 4 iyun 2016-cı il tarixlərdə qüvvəyə minmiş) 6 may 2016-cı il tarixli dəyişiklikləri etdi ki, həmin əqdlərin tənzimlənməsini inkişaf etdirsin.

Azərbaycanın digər şirkətlərindən fərqli olaraq, bank və sığorta şirkətləri aidiyyəti şəxslərlə olan hər bir əqdinin yuxarı orqan tərəfindən təsdiqini təmin etməlidir və beş faiz göstərici ondan ötrü istifadə edilir ki, təsdiqin hansı orqan tərəfindən gəlməsini təyin etməyə mümkün olsun: direktorlar şurasından yaxud, sığorta şirkətlərinə münasibətdə, icra orqanından (əqd bank və ya sığorta şirkətinin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq olduğu halda və ya başqa səbəblərdən səhmdarlar tərəfindən təsdiq olunmasını tələb etdiyi hallar istisna olmaqla) və ya səhmdarların ümumi yığıncağından (əqdin dəyəri bank və ya sığorta şirkətinin aktivlərinin beş faizini və ya daha çox hissəsini təşkil etdiyinə görə).

Aidiyyəti şəxslər banklar üçün əsasən Mülki Məcəllədə nəzərdə tutulan şəxslərlə (birbaşa və dolayı səhmdarlar, idarə orqanların üzvləri və onların qohumları) üst-üstə gəlir, lakin başqa cəmiyyətlərdən fərqli olaraq, bankların aidiyyəti şəxslərinə əlavə olaraq baş mühasiblər və daxili auditorlar və onların qohumları aid edilib.

Yuxarıda göstərildiyi kimi, bank və ya sığorta şirkətinin aidiyyəti şəxslə olan və aktivlərinin baş faizədək hissəsini təşkil edən əqd direktorlar şurası (və ya sığorta şirkətlərində, həmçinin icra orqanı) tərəfindən təsdiq olunmalıdır lakin, aktivlərin beş faizini və ya artıq hissəsini təşkil edən əqdin bağlanmasına dair qərarı səhmdarların ümumi yığıncağı sadə səs çoxluğu ilə qəbul etməlidir. Aktivlərinin beş faizini və ya artıq hissəsini təşkil edən əqdin bağlanmasının başqa şərti odur ki, müstəqil auditorun rəyi alınmalıdır (rəy həmin göstəricidən aşağı olan əqdlərə münasibətdə tələb olunmur).

Aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydalarının, belə ki, müstəqil auditorun rəyinin əldə olunması və mütənasib korporativ razılıqların əldə olunması tələblərinin pozulması ilə əqdlərin bağlanmasına görə banklar inzibati məsuliyyətə cəlb olunaraq 15.000 manatdan 20.000 manatadək məbləğdə, və onların vəzifəli şəxsləri 2.000 manatdan 2.500 manatadək məbləğində cərimə olunacaq.

Eyni məsuliyyət [banklar üçün] aidiyyəti şəxslərlə bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış edən inzibatçıların həmin əqdlə əlaqədar *aidiyyəti şəxs* statusunda olması və öz maraqlarının xüsusiyyətləri barədə məlumatları Mülki Məcəllədə nəzərdə tutulduğu kimi, yəni direktorlar şurasına və ya (direktorlar şurasının üzvü aidiyyəti şəxsdirsə) bankın səhmdarlarının ümumi yığıncağına açıqlanmamasına görə də nəzərdə tutulub.

Sığorta şirkətləri üçün nəzərdə tutulan məsuliyyət aşağı hədlərdə müəyyən olunub və vəzifəli şəxslər üçün 1.000 manatdan 1.500 manatadək şirkətlər üçün isə 10.000 manatdan 15.000 manatadək məbləğləri təşkil edir.

Dəyişikliklər aidiyyəti şəxslərlə olan əqdlər üçün nəzərdə tutulan ümumi məhdudiyyətləri aradan götürməyib, belə ki banklar aidiyyəti şəxslərə güzəştli kreditlər, eyni zamanda hüquqi şəxsə bankın məcmu kapitalının 10 faizindən (fiziki şəxs üçün isə 3 faizindən) artıq, aidiyyəti şəxslərinin məcmusuna isə bankın məcmu kapitalının 20 faizindən artıq məbləğdə kreditlər verə bilməz. Banklar başqa prudensial tələblərə də riayət etmək məcburiyyətindədirlər.

Sığorta şirkətlərinə dair da ilkin məhdudiyyətlər tətbiq olunmaqda davam edir, belə ki aidiyyəti şəxslərlə əqdlər adi biznes əməliyyatları olmalıdır və dairəsi qanunla müəyyən olunmuş əqdlərə (sığorta və təkrar sığorta müqavilələrinin bağlanması, borca pul götürülməsi və s.) uyğun olmalıdır və şirkətin aidiyyəti şəxslərlə bağlanmış əqdlərinin məcmu dəyəri sığortaçının öz vəsaitinin 10 faizindən çox olmamalıdır.

## İQTİSADİ FƏALİYYƏT SAHƏSİNDƏ POZUNTULAR ÜÇÜN MƏSULİYYƏTİN ARTMASI

Cinayət məsuliyyətinə əsas verən bir sıra iqtisadi qanun pozuntularına görə göstəricilərin artması ilə (yuxarı həddi 7,000 manatdan artıq olan məbləğ 100,000 manatdan artıq olan məbləğ ilə əvəz olunaraq), 1 iyun 2016-cı il tarixindən belə cinayətlərə görə maliyyə sanksiyası da artdı.

Qanunsuz sahibkarlıqla, o cümlədən lisenziya tələb olunduğu hallarda lisenziya almadan və ya dövlət (vergi) uçotuna alınmadan fəaliyyət göstərilməsinə görə, həmin əməllər 20.000 manatdan artıq məbləğdə ziyan vurursa və ya gəlir əldə etməklə törədilirsə, cinayət məsuliyyəti çərçivəsində vurulmuş ziyanın yaxud əldə edilmiş gəlirin iki mislindən beş mislinədək miqdarda cərimə tətbiq olunacaq.

Eyni maliyyə sanksiyası borcalanın təsərrüfat və ya maliyyə vəziyyəti haqqında yalan məlumat verməklə kreditlərin əldə edilməsinə və digər bir çox iqtisadi cinayətlərə görə tətbiq ediləcək.

Həmçinin, qiymətli kağızlar, kommersiya və ya bank sirri, əmtəə nişanlarının istifadəsi və ya saxta yaxud qəsdən müflisləşmə ilə bağlı inzibati xətalara görə cərimələr təsbit olunmuş məbləğlərin əvəzinə (məs, 300 manat və ya 2.000 manat) həmin xətalar nəticəsində vurulmuş ziyanın yaxud əldə edilmiş gəlirin iki mislindən dörd mislinədək məbləğlərdə təsbit edildi.

Eyni zamanda, qanunsuz və ya yalançı sahibkarlığa və vergi yaxud gömrük ödənişlərinin ödənilməsindən yayınmaya görə 1 iyun 2016-cı il tarixdən (və çox yəqin ki, retroaktiv tətbiqi olmaqla) həmin əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə inzibati məsuliyyətdən azad olunur.

## SƏNAYE PARKLAR ÜÇÜN ƏLAVƏ GÜZƏŞTLƏR

Yeni dəyişikliklər əsasında müvafiq təsdiqedici sənədi əldə edən sənaye parklarının rezidentlərinin (müəyyən mallara (məs, texnoloji avadanlıq) tətbiq edilən azadolmadan fərqli olaraq) bütün növ malların idxalı 1 may 2016-cı il tarixdən beş il müddətinə gömrük rüsumlarından azad edildi.

Eyni tarixdən başlayaraq sənaye parkının rezidentinə podratçı tərəfindən, podratçıya isə onunla birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi “0” dərəcə ilə əlavə dəyər vergisinə beş il müddətinə cəlb olunacaq.

Sənaye parklarında rezidentlər, onların podratçıları və podratçılar ilə birbaşa müqavilə bağlamış subpodratçılar tərəfindən sənaye parkında fəaliyyətə cəlb olunmuş əcnəbilər 1 may 2016-cı il tarixindən məcburi dövlət sosial sığortasından beş il müddətinə azad olunub.

## İŞ İCAZƏSİNDƏN AZADOLMA GENİŞLƏNDİ

223-VQD nömrəli 6 may 2016-cı il tarixli qanun və qanunun tətbiqini təmin edən fərmanla iş icazəsi tələb olunmayan əcnəbilərin siyahısına (i) təsisçilərdən ən azı biri xarici şəxs olan yerli hüquqi şəxslərin rəhbərləri və onların müavinləri və (ii) Qaradağ Sənaye Parkında rezident və podratçısı tərəfindən keçirilən gəmiqayırma fəaliyyətinə cəlb olunmuş mütəxəssislər əlavə olundu.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2016 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

[*] Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.